**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№ 277/5** **04 iyul 2016-cı il**

**“Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət komitəsinin 2016-cı il üzrə dəqiqləşdirilmiş iş planının və keyfiyyətə nəzarət komitəsinin müfəttişlərinin siyahısının təsdiqi” barədə**

Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin “Auditor xidmətinin keyfiyyətinə nəzarət sisteminin yaxşılaşdırılması haqqında” 2016-cı il 8 iyun tarixli 1/20 saylı sərəncamına uyğun olaraq Keyfiyyətə nəzarət komitəsinin sədri E.Əliyevin və Palatanın Auditin keyfiyyətinə nəzarət şöbəsinin müdiri Y.Namazəliyevin təqdim etdikləri “Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət komitəsinin 2016-cı il üzrə dəqiqləşdirilmiş iş planının və keyfiyyətə nəzarət komitəsinin müfəttişlərinin siyahısının layihələrini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət komitəsinin 2016-cı il üzrə dəqiqləşdirilmiş iş planı və keyfiyyətə nəzarət komitəsinin müfəttişlərinin siyahısı təsdiq edilsin (əlavə olunur);
2. Auditin keyfiyyətinə nəzarət şöbəsinə (Y.Namazəliyev) və Keyfiyyətə nəzarət komitəsinə (E.Əliyev) tapşırılsın ki, 2016-cı ilin ikinci yarım ili ərzində keçiriləcək auditor xidmətinin keyfiyyətinə nəzarətin beynəlxalq tələblərə uyğun həyata keçirilməsini təmin etsinlər;
3. Bu qərarın mətninin, Keyfiyyətə nəzarət komitəsinin 2016-cı il üzrə dəqiqləşdirilmiş iş planının və keyfiyyətə nəzarət komitəsinin müfəttişlərinin siyahısının Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**